*Səfəvi xanədanının dirəkləri olan əmirlərin öz vəzifələrinin icrasına başlamasından xeyli keçmiş və bu müddət ərzində Şah İsmayıla beyət edən əyalətlərin hər birində əmin-amanlıq başlamışdı. Hökmdarın fərmanı ilə bəzi əyalətlərin hakimləri dəyişmiş, şiə məzhəbli başçılar idarə işlərinə rəvac vermişdilər. Doğrudur, bəzi əyalətlərdə qatı sünni məzhəb qüvvə sahibləri Əlvənd Mirzə tərəfdarlarının təbliğatı ilə açıq olmasa da, gizlində vaxt və fürsət gözləyirdilər. Əlvənd Mirzə onların hər birini müxtəlif yollarla şirnikləndirir, məktublar göndərir və Şah İsmayılın yolunu azmasından, Ağqoyunlu xanədanına xəyanət etməsindən bəhs edirdi.*

*Təbriz Ağqoyunlular zamanında ticarət mərkəzi olduğu kimi, həm də siyasət mərkəzi idi. Yəni böyük Ağqoyunlular səltənətinin paytaxtı idi. Belə olduğu halda demək, həm də şəhər mədəniyyət mərkəzi kimi çiçəklənmişdi. Uzun Həsən şəhərin gözəlləşməsi, mühüm memarlıq binaları tikdirməsi üzündən xüsusi gözəllik kəsb etmişdi. Dünyanın hər yerindən gələn səyyahlar Təbriz haqqında özləri ilə əfsanələr aparırdılar. Şübhəsiz, onlar, həm də Təbrizdə müxtəlif sənət və peşə sahələrinin inkişafından, eləcə də silah-sursat emalatxanalarının olduğundan da bəhs edirdilər. Bu barədə xəbərlər, əlbəttə ki, Osmanlı sarayına da çatırdı.*

*Şah İsmayıl şahlığını elan etməsindən keçən vaxt ərzində öz ordusunu cəmləmək, orduya yeni qüvvələr cəlb etmək işi ilə məşğul oldu. Əlbəttə ki, ordunu döyüşə aparmaq üçün silah-sursat tədarükü də əsas işlərdən idi. Bu işin icrasına Şah İsmayıl bir ildən çox vaxt sərf etdi. O bilirdi ki, Şərur döyüşündən sonra özünə gəlməyən Əlvənd Mirzə yenidən onun üzərinə hücum edə bilməz.*

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*



*Hüseynbala MİRƏLƏMOV*

*(Əvvəli ötən saylarımızda)*

...Yay gəlmişdi və özü ilə təzə qayğılar gətirmişdi.

Şah Hüseyn Lələ bəyi yanına çağırdı. Hüseyn Lələ bəy şahın divanına gəlib təzim etdi:

- Canımız sənə fəda olsun, şahımız, nə ərziniz var?

Şah sağ əlini qaldırıb Hüseyn Lələ bəyi salamladı:

- Bəlkə Lələ özü təzə məlumatlar vermək istəyir, - soruşdu.

- Bəli, şahım, hamımıza məlum olduğu kimi Əlvənd Mirzə sakit qalmayıb, bu müddət ərzində böyük hazırlıq işləri görüb. Özü də 10 min nəfərlik qoşunu ilə kifayətlənməyib Məraş və Əlbistan tərəflərdə baş aparan və Səfəvi ocağının düşməni mövqeyində duran Əlaüddövlə Zülqədər xanın da 20 minlik qoşunundan istifadə etmək fikrindədir.

- Bəs nə əcəb, Zülqədər xan belə asanlıqla özünün böyük qüvvələrini Əlvənd Mirzəyə tabe edir?

- Şahım, bilirsən ki, Əlvənd Mirzənin dili ilanı yuvasından çıxarar. O, Bayandırlar xəzinəsinin sahibi olduğunu və bu xəzinəni də gələcəkdə onunla bölecəyini vəd etməkdən başqa, vaxtilə Ağqoyunlulara tabe olan ərazilərinin yarısını da ona vəd edir.

- Hə, demək belə. Bu kömək sayəsində Əlvənd Mirzə özü Zülqədər xana böyük vədlər verir.

- Şahım, amma unudur ki, şahımızın Allahdan güc alan qılıncı onların hər ikisinin gündüzünü gecəyə çevirəcəkdi.

- Bəs indi məsləhətin nədir, Lələ?

- Deyirəm, bəlkə Əlvənd Mirzənin arxasınca bir qoşun göndərək?

Cavan şah sükuta getdi. O, Lələnin sözlərini qəribliyə salmaq istəmirdi, bilirdi ki, Hüseyn Lələ bəy, həm Əlvənd Mirzənin gücünü yaxşı bilir, həm də onun hiyləgərliyindən, Osmanlılarla əlaqələrindən Səfəviyə təriqətinə xilaf olanları necə öz toruna salmasından xəbərdardır. Ona görə də qəti hökm vermədən elə məsləhət təriqində bildirdi:

- Lələ, bəlkə Əlvənd Mirzənin arxasınca özümüz gedək?

- Bəs onda Təbrizi kimə tapşırarıq, şahım?

- Düşünürəm ki, Məhəmməd xan Ustaclı daha yaxşı olardı. Amma onun hərbi təcrübəsi Əlvənd Mirzə ilə qarşılaşanda bizə çox gərək olar.

- Şahım, kimi nəzərdə tutursan?

- Lələ, düşünürəm ki, Halvaçıoğlu daha münasib olar.

Hüseyn Lələ bəyin qaşları çatıldı. O, cavan şahın bu qədər dərin müşahidə sahibi olmağından sanki vəcdə gəldi:

- Sənə qurban olum, şahım. Necə doğru buyurursan. Bəlkə də Allahın özü bu hökmü rəva bilir.

Şah yerindən qalxdı:

- Qoşuna xəbər ver. Bir həftəyə Əlvənd Mirzənin arxasınca yola çıxırıq.

- Alınan məlumatlara görə Əlvənd Mirzə Ərzincan tərəflərdədir - Lələ bəy tez dilləndi. - Əgər onu Aladağ yaylağında yaxalaya bilsək, elə oradaca işini bitirərik.

- Hə, Lələ, sən yol tədarükündə ol, - şah yaxınlaşıb Hüseyn Lələ bəyin qolundan tutub onu qapıya tərəf ötürdü.

Şah İsmayıl Hüseyn Lələ bəyin xətrini çox istəyirdi. Ona müəllimi və atası kimi ehtiram göstərirdi. İndi şah olandan sonra da ona olan ehtiramını davam etdirir, hər cür hörmət göstərməkdən xoşhal olurdu.

Şah İsmayılın orduları Ərzincan istiqamətində hərəkətdə idi. Bir aya qədər vaxt keçmişdi. Şah Aladağ yaylağında qoşuna istirahət vermək və burada ov üçün dayanmaq qərarına gəldi.

...Əlvənd Mirzənin adamları şahın səfərini qarabaqara izləyirdi. Onun nə qədər ordu ilə yola çıxmağını, səfərin istiqamətini, haralarda dayandığını hər həftə təzə xəbərlərlə Əlvənd Mirzəyə çatdırırdılar.

Əlvənd Mirzə Şah İsmayılın Təbrizdən uzaqlaşdığını biləndən kimi öz qoşununu Təbriz istiqamətinə yönəltdi. Gecə-gündüz dayanmadan hərəkət edən qoşun hələ Şah İsmayıl Aladağda ov üstündə olarkən Təbrizə çatmışdı. Halvaçıoğlu müdafiəni nə qədər güclü təşkil etsə də, Əlvənd Mirzənin saysız-hesabsız qüvvələri qarşısında dayana bilmədi. Şəhərin küçələrində də hədsiz qırğın gedirdi. Halvaçıoğlu vəziyyətin ağırlığını görüb bütün qoşunu - şəhəri mühafizə edən qüvvələri tamam məhv olmaqdan qurtarmaq qərarına gəldi. O, qüvvələri şəhərdən kənara çəkdi. Doğrudur, Təbrizin şiə təriqətli əhalisi də şəhərin müdafiəsində fədakarlıq göstərirdi. Amma Ağqoyunlular səltənətinin Əlvənd Mirzəyə aldanan tərəfdarları da az deyildi. Onlar Əlvənd Mirzənin adamlarına bələdçilik etməklə Şah İsmayıl tərəfdarlarını nişan verir, qatı şiə məhzəbli adamların qətliamına şərait yaradırdılar.

Halvaçıoğlu çıxılmaz vəziyyətə düşmüşdü. O, Əlvənd Mirzənin ayrı-ayrı dəstələri üzərinə hücumlar təşkil eləsə də, qüvvələr nisbəti bərabər olmadığından əsaslı bir dönüş yarada bilmirdi. Halvaçıoğluna xəbər çatdı ki, bir neçə gün içərisində Əlvənd Mirzə Təbrizin 7 min insanını qətlə yetirib. Təbrizin küçələrində qan su yerinə axırdı. Hamı yaranmış vəziyyətdən pəjmürdə idi, döyüş səngimişdi. Halvaçıoğlu şəhərin kənarında mövqelərini saxlayırdı. Hələ ki, Əlvənd Mirzə onun üzərinə hücuma keçmirdi. Amma tez-gec bunun olacağını bilən Halvaçıoğlu yollar axtarırdı. Ay doğmuşdu, hər tərəf süd rəngə boyanmışdı. Halvaçıoğlu üzünü Aya tutdu, dodağının altında nəsə pıçıldayırdı. Hətta yanında kimsə olsaydı da onun tez-tez «şahım» dediyini eşidə bilməzdi.

...Şah İsmayıl Aladağ yaylağında Ləkzi çəmənində ovdan sonra istirahətdə idi. Axşamdan xeyli keçmiş öz çadırına çəkilib yatmaq istədi. Nəsə narahat və nigaran idi. Səhərə yaxın gözünə yuxu getdi. Bəlkə də elə təzəcə yuxulamışdı. Bir də gördü ki, Halvaçıoğlu qan içində boğulur, «Hardasan, şahım» deyə çağırırdı.

Hövlnak yerindən qalxdı. Ordunun ayrı-ayrı dəstələrinə rəhbərlik edən sərkərdələri yanına çağırdı. Heç bir müzakirəyə yol vermədən həyəcanla bildirdi. Mən indicə yuxuda gördüm ki, Halvaçıoğlu qan içində boğulur və bizi çağırır. Tez Təbrizə yola düşək.

Nə Şah İsmayılın yanındakı əmirlər, nə də ordunun ayrı-ayrı dəstələrinə başçılıq edən sərkərdələr bir söz demədilər. Deyəsən, onlara da məlum olmuşdu ki, Əlvənd Mirzənin hiyləgərliyi sayəsində onlar aldanıblar. Bu qədər vaxtı havayı keçiriblər. Artıq bir-birinin arxasınca Təbrizdən də Halvaçıoğlundan da gələn xəbərlər yolboyu Şah İsmayıla çatdırıldı.

Qoşun yola iki həftə sərf elədi. Və şəhərə çatan kimi mühasirə halqası yaradıldı. Halvaçıoğlu hökmdarın gəlişindən sevindi. Əlini göyə tutub, sanki qışqıra-qışqıra dedi: - Ey Allahım, sən ki, məni darda qoymadın... Halvaçıoğlu, deyəsən, sözünün gerisini öz qəlbinin səsi ilə bildirdi.

Əlvənd Mirzə səhərin açılması ilə Təbrizin üzük qaşı kimi mühasirəyə alındığını başa düşdü. Günortaya qədər sərt döyüş oldu. Əlvənd Mirzə ələ keçəcəyini düşünüb mühasirədən çıxmaq yollarını axtardı. O, libasını dəyişmişdi, üz-gözünü qaralamışdı. Özü ilə kiçik bir dəstə götürdü. Ağqoyunlu xanədanından-danqalma daş-qaş və qızıl xəzinəsinin də bir hissəsinə sahibləndi. Bu xəzinənin o hissəsi idi ki, onun yerini ancaq Əlvənd Mirzə bilirdi. Növbəti gecənin düşməyini gözlədi. Özünə yaxşı bələd olan gizlin yolla şəhərdən çıxdı. Baş götürüb üzü Bağdad tərəfə qaçdı. Səhər açılıb növbəti günün döyüşü başlar-başlamaz Əlvənd Mirzə qoşunlarının pərakəndəliyi üzə çıxdı. Qoşun əhlinə məlum oldu ki, başçı qoşunu başsız buraxıb qaçıb getmişdi.

Şah İsmayıl Halvaçıoğlunu yanına çağırdı.

Halvaçıoğlu şahın hüzuruna kədər içərisində gəldi. Şah onun əhvalını yaxşı başa düşürdü.

- Halvaçıoğlu sən heç də qəmlənmə, bu, bir qəza-qədər işidir.

- Yox, şahım, qanım halaldır, mənim boynumu vurdura bilərsən. Mən Təbrizi qoruya bilmədim.

- Yox, Halvaçıoğlu, sənin günahın yoxdur. Əslində, Əlvənd Mirzə bizi də aldatmışdı. Biz gərək biləydik ki, o, bizim Təbrizdən çıxmağımızı gözləyir. Bu fürsəti biz ona gərək verməyəydik. Amma indi olan olub.

- Şahım nə fərman buyursa, mən başımla hazıram.

- Halvaçıoğlu, biz Əlvənd Mirzənin yolu ilə gedib, təzədən qırğın törədə bilmərik.

- Bəs şahım nə məsləhət buyurur?

- Əlvənd Mirzənin qüvvələrindən 10 min nəfərinəcən şəhərdədir. Onlar silahı yerə qoyub təslim olublar. Qoy bizim təriqəti qəbul edib, Qızılbaş qoşununa daxil olan əmin-amanlıqda olsun.

- Baş üstə, şahım. Bəs Təbriz əhlinin qanına bais olan xilaflar necə?

- Bəli, o şəxslər ki günahsız insanların qanına bais olublar, onlar haqlı cəzalarına çatmalıdırlar.

- Doğrudur, şahım. Təbriz əhlinin içərisində də var belələri. Onlar qabağa düşüb qırğına şərait yaradıblar.

- Halvaçıoğlu, çalış ki, sən də nahaq qana bais olmayasan.

- Baş üstə, şahım, - Halvaçıoğlu təzim etdi və öz işinin arxasınca getdi.

Az vaxt içərisində Təbrizdə əmin-amanlıq təmin olundu. Qoşundan və şəhər əhlindən şəhid olanların qan haqqı ödənildi. Yaralılar müalicəxanalara daşındı.

...Əlvənd Mirzə xəzinənin özünə məlum olan gizlincindən götürdüyü qızıllarla yol boyu yeni qüvvələr tədarükündə oldu. Doğrudur, elə də çox qoşun toplaya bilmədi.

*(Davamı var)*